Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Əlavə 5**

## Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi [1]

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1 Bu Qayda "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 1599 nömrəli Fərmanının 5.2.2-ci yarımbəndinə müvafiq olaraq hazırlanmışdır və qeyri-neft sektorunda fəaliyyət göstərən rezident sahibkarların *Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) Himayəçilik Şurası tərəfindən müəyyən edilən iqtisadi fəaliyyət sahələri üzrə* müvəkkil banklardan manatla aldıqları və *Fondun* təminat verdiyi kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi hallarını və qaydasını müəyyən edir.[2]

1.2. Faiz subsidiyasını *Fond* dövlət büdcəsinin vəsaiti hesabına ödəyir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün "faiz subsidiyası" dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı sahibkarların müvəkkil banklardan manatla aldıqları və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"na uyğun olaraq *Fondun* zəmanət verdiyi kreditlər üzrə *ödənilməli olan* faizlərin bir hissəsinə görə dövlət tərəfindən əvəzsiz verilən maliyyə vəsaiti başa düşülür.[3]

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nda müəyyən edilmiş mənaları ifadə edir.

### 3. Faiz subsidiyasının verilməsi halları

3.1. Faiz subsidiyası illik faiz dərəcəsi 20%-dən çox olmayan kreditlər üçün verilir.

*3.2. Faiz subsidiyası kreditin illik faiz dərəcəsinin 8 faiz bəndi miqdarında, investisiya təşviqi sənədi almış və ya cari ildə ixrac təşviqi ödənilmiş sahibkara investisiyanın həyata keçirildiyi müvafiq iqtisadi fəaliyyət sahəsi üzrə ayrılan kreditlər üçün isə illik faiz dərəcəsinin 10 faiz bəndi miqdarında verilir.*[4]

~~3.3. Bu Qaydaların 3.2.1-ci və 3.2.2-ci yarımbəndləri ilə müəyyən edilən kreditlərin faiz dərəcələri müvafiq olaraq 14%-dən və 16%-dən aşağı olduqda, faiz subsidiyası kreditin faiz dərəcəsindən 6 faiz bəndi çıxılmaqla müəyyən edilir.~~[5]

3.4. Müddəti 3 (üç) ildən artıq olan kreditlər üçün faiz subsidiyası maksimum 3 (üç) il müddətində verilir.

3.5. Kredit xətti istisna olmaqla, balansarxası öhdəliklərə faiz subsidiyası verilmir.

3.6. Faiz subsidiyası dövlətin maliyyə resursları hesabına verilən güzəştli kreditlərə şamil edilmir.

## 4. Müvəkkil bank üçün limitin müəyyən edilməsi

*4.1. Fondun Himayəçilik Şurası hər bir müvəkkil bank üzrə faiz subsidiyasının maksimum limitinin müəyyənləşdirilməsi qaydasını təsdiq edir.*[6]

4.2. Müvəkkil bank üçün faiz subsidiyası limiti Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 11.2-ci, 11.3-cü, 11.6-cı, 11.7-ci, 11.10-cu və 11.11-ci bəndlərində göstərilən prosedurlara uyğun olaraq *Fondun İdarə Heyəti tərəfindən* müəyyən edilir.[7]

4.3. Müəyyən edilmiş limitin məbləği müvəkkil bankın faiz subsidiyası üçün müraciətindəki məbləğdən yüksəkdirsə, bu halda limit məbləğinin artıq olan hissəsi digər müvəkkil banklar arasında fərdi ballara uyğun olaraq bölüşdürülür. Bir müvəkkil bank üzrə müəyyən olunmuş fərdi limit həmin il üçün veriləcək faiz subsidiyasının ümumi məbləğinin 15%-indən çox ola bilməz.

4.4. Cari il üçün nəzərdə tutulmuş faiz subsidiyası limitindən tam istifadə edildikdə, müvəkkil bank həmin il ərzində illik faiz subsidiyası limitinin artırılması ilə bağlı *Fonda* müraciət edə bilər. Bu zaman əlavə limitin ayrılması və ondan istifadə bu Qaydanın 4-cü hissəsi ilə tənzimlənir.

~~4.5. Müvəkkil bank tərəfindən təqvim ilində ona ayrılmış ilkin və ya azaldılmış faiz subsidiyası limitindən istifadə 90%-dən az olduqda, həmin ilkin və ya azaldılmış limitin istifadə olunmamış hissəsinə *Fondun Himayəçilik Şurası* tərəfindən müəyyən olunmuş həddə cərimə tətbiq edilir.~~

4.6. Hər bir müvəkkil banka ayrılmış illik limit həmin bankın Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi müddət aralığında verdiyi kreditlərə görə bu Qaydanın 5.8-ci bəndinə əsasən *kredit verildiyi tarixdən həmin ilin sonunadək* hesablanmış faiz subsidiyasının cəmi məbləğinə şamil edilir.[8]

## 5. Faiz subsidiyasının verilməsi üçün müraciət

5.1. Faiz subsidiyasının verilməsi üçün müvəkkil bank *"Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə Fonda* aşağıdakı sənədləri təqdim edir:[9]

5.1.1. faiz subsidiyasının verilməsi üçün *Fondun* müəyyən etdiyi formada borcalanın müvəkkil banka *elektron sistem vasitəsilə* müraciəti;[10]

5.1.2. kreditin əsas məbləğini, ödənilməli faizlərini, o cümlədən ödənilməli olan faiz subsidiyasının aylıq və cəmi məbləğini əks etdirən, formasını *Fondun* müəyyənləşdirdiyi və müvəkkil bankın səlahiyyətli şəxsi tərəfindən imzalanan və möhürlə təsdiq edilən cədvəl.

5.2. Borcalana faiz subsidiyasının verilməsi üçün müvəkkil bankın *elektron sistem vasitəsilə* müraciəti *Fonda* zəmanət alınması ilə bağlı tələb olunan sənədlərlə eyni vaxtda *və ya daha sonra ayrıca* təqdim edilir. [11]

5.3. Kredit xətti üçün bu Qaydanın 5.1.2-ci yarımbəndində nəzərdə tutulan ödəniş cədvəli həmin kreditdən dərhal və tam məbləğdə istifadə edilməsi, hər ay üçün faiz ödənişlərinin aparılması və əsas borcun müddətin sonunda ödənilməsi nəzərdə tutulmaqla hazırlanır.

5.4. Müvəkkil bank bu Qaydanın 5.1.1-ci və 5.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatların *Fonda* təqdim ediləcəyi barədə borcalanın *elektron sistem vasitəsilə* qabaqcadan razılığını alır.[12]

5.5. Faiz subsidiyasının verilməsi üçün müvəkkil bankın müraciətinə *Fond* Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.4–5.9-cu bəndlərində göstərilən qaydada baxır.

*5.6. Fond faiz subsidiyasının verilməsinə və onun həcminə dair müvafiq qərar qəbul edir və bu qərar elektron sistemdə yerləşdirilir. Aşağıdakı hallarda faiz subsidiyasının verilməsindən imtina olunur:*[13]

*5.6.1. ödənilməli olan faiz subsidiyasının məbləği müvəkkil bank üçün müəyyən edilmiş faiz subsidiyası limitinin istifadə edilməmiş hissəsindən çox olduqda;*

*5.6.2. faiz subsidiyasının verilməsi üçün müraciət olunan kredit üzrə zəmanət verilməsindən imtina edildikdə;*

*5.6.3. faiz subsidiyasının verilməsi üçün müraciət bu Qaydanın 3-cü hissəsində müəyyən olunmuş hallara uyğun olmadıqda;*

*5.6.4. faiz subsidiyasının verilməsi üçün müraciət olunan kredit bu Qaydanın 1.1-ci bəndinə əsasən Fondun Himayəçilik Şurasının müəyyən etdiyi iqtisadi fəaliyyət sahələrinə uyğun olmadıqda.*[14]

5.7. *Fondun* borcalana faiz subsidiyası verməsi barədə müvafiq qərar zəmanət verilməsi ilə bağlı *Fondun* qərarı ilə birlikdə *və ya faiz subsidiyası daha sonra verildiyi halda ayrıca* müvəkkil banka təqdim olunur.[15]

5.8. Müvəkkil bank borcalanla kredit müqaviləsi bağladıqdan sonra 3 (üç) iş günü müddətində, bu barədə məlumatı bu Qaydanın 5.1.2-ci yarımbəndində nəzərdə tutulan məlumatları əks etdirən və kredit müqaviləsinin əlavəsi kimi rəsmiləşdirilən cədvəllə birlikdə *Fonda* təqdim edir.

## 6. Faiz subsidiyasının ödənilməsi

*6.1. Müvəkkil bank hər ayın 5-dək hesablanmış faizlərin faktiki ödənilməsinə dair hesabatı və faiz subsidiyasının ödənilməsinə dair müraciəti elektron sistem vasitəsilə Fonda təqdim edir.* Hesabatın formasını *Fond* müəyyənləşdirir.[16]

6.2. *Fond* bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş müraciət daxil olduqdan sonra 5 (beş) iş günü müddətində faiz subsidiyasını aşağıdakı məbləğlərdə müvəkkil bankın Azərbaycan Respublikasının Mərkəzi Bankında olan hesabına köçürür:

6.2.1. bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ~~borcalana~~ ödənilməli faiz subsidiyası bu Qaydanın 5.8-ci bəndində nəzərdə tutulmuş cədvəldə göstəriləcək faiz subsidiyasının məbləğindən çox olduqda – cədvəldə göstərilən məbləğdə;[17]

6.2.2. bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ~~borcalana~~ ödənilməli faiz subsidiyası bu Qaydanın 5.8-ci bəndində nəzərdə tutulmuş cədvəldə göstəriləcək faiz subsidiyasının məbləğindən az və ya ona bərabər olduqda – hesabatda göstərilən məbləğdə.

6.3. Borcalanın zəmanət verilmiş krediti üzrə ödənilən faiz subsidiyasının cəmi məbləği bu Qaydanın 5.8-ci bəndində nəzərdə tutulmuş ödəniş cədvəlində göstəriləcək faiz subsidiyasının cəmi məbləğindən artıq ola bilməz.

~~6.4. Müvəkkil bank faiz subsidiyasını 3 (üç) iş günü müddətində borcalanın həmin bankdakı cari hesabına köçürür.~~[18]

6.5. Bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş hesabatın müvəkkil bank tərəfindən təhrif olunmuş şəkildə təqdim olunması aşkar olunduqda, *Fond* tərəfindən müvəkkil banka artıq ödənilmiş faiz subsidiyası müvəkkil bankın vəsaitləri hesabına geri qaytarılır.

6.6. Faiz subsidiyası yalnız bu Qaydanın 5.8-ci bəndində nəzərdə tutulmuş cədvəldə göstərilən faiz dərəcəsinə uyğun (dəbbə pulu nəzərə alınmadan) ödənilir.

## 7. Faiz subsidiyasının ödənilməsinin dayandırılması və ləğvi

7.1. Aşağıdakı hallarda borcalana faiz subsidiyasının ödənilməsi dayandırılır:

*7.1.1. faiz subsidiyasının ödənilməsinə dair müvəkkil bankın elektron sistem vasitəsilə Fonda müraciət tarixinə 1 iş günü qalanadək borcalanın müvəkkil bankda olan hesabı üzərində məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla borcalan arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda – həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək);*[19]

7.1.2. *faiz subsidiyasının ödənilməsinə dair müvəkkil bankın elektron sistem vasitəsilə Fonda müraciət tarixinə 1 iş günü qalanadək* borcalan tərəfindən kredit üzrə əsas borc və (və ya) hesablanmış faizlər üzrə ödənişlərdə gecikmə olduqda – gecikdirilmiş borc tam məbləğdə ödənilənədək;[20]

7.1.3. kredit müqaviləsi qüvvədə olduğu müddətdə borcalan barəsində iqtisadi fəaliyyət sahəsində cinayət törətməsi ilə bağlı cinayət işi başlandıqda və həmin cinayət işinə dair cinayət prosesini həyata keçirən orqanlardan müvəkkil banka məlumat daxil olduqda – cinayət işinə xitam verilməsinə dair müvafiq qərar qəbul edilənədək və ya borcalanın təqsirsiz hesab edilməsinə dair məhkəmə qərarı qüvvəyə minənədək.

7.2. Bu Qaydanın 7.1-ci bəndində nəzərdə tutulmuş hallar aradan qaldırıldıqdan sonra faiz subsidiyasının ödənilməsi bərpa edilir və həmin dövrlər üçün ~~borcalana~~ ödənilməli faiz subsidiyası bu Qaydanın 6-cı hissəsində nəzərdə tutulmuş qaydada *müvəkkil bankın hesabına* köçürülür.[21]

7.3. Aşağıdakı hallarda borcalana faiz subsidiyasının ödənilməsi ləğv edilir:

7.3.1. borcalanın *və müvəkkil bankın* bu barədə müraciəti olduqda;[22]

7.3.2. borcalan sahibkarlıq fəaliyyətini dayandırdıqda, bu fəaliyyətə xitam verdikdə və ya onun bu fəaliyyətlə məşğul olmaq hüququ qanunla müəyyən edilmiş qaydada ləğv edildikdə;

7.3.3. iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə məsuliyyətini təsdiqləyən məhkəmə qərarı olduqda;

7.3.4. müqavilə üzrə ödənişlərinin icrası 90 (doxsan) gündən çox gecikən krediti restrukturizasiya olunduqda.

~~7.3.5. müvəkkil bankla bağlanmış çərçivə müqaviləsi ləğv edildikdə.~~[23]

7.4. Bu Qaydanın 7.3-cü bəndində nəzərdə tutulmuş hallar yarandıqda, müvəkkil bank 3 (üç) iş günü müddətində *Fonda* bu barədə *elektron sistem vasitəsilə* məlumat verir.[24]

## 8. Hesabatlılıq və monitorinq

Faiz subsidiyası verilmiş kreditlərdən təyinatı üzrə istifadə edilməsi ilə bağlı hesabatlılıq və monitorinq Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"na uyğun olaraq həyata keçirilir.[25]

## *9. Keçid müddəa*[26]

*Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 5.1-ci, 5.2-ci, 5.4-cü, 5.6-cı, 6.1-ci və 7.4-cü bəndlərində və 5.1.1-ci, 7.1.1-ci və 7.1.2-ci yarımbəndlərində elektron sistem vasitəsilə edilməsi nəzərdə tutulmuş əməliyyatlar yazılı formada həyata keçirilməlidir.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)**
2. 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)**
3. 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)**
4. 25 dekabr 2018-ci il tarixli **435** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, № 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2592)**
5. 21 may 2019-cu il tarixli **705** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 857)**
6. 16 dekabr 2019-cu il tarixli **880** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 dekabr 2019-cu il, № 280, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1923)**
7. 7 may 2020-ci il tarixli **1016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)**
8. 21 sentyabr 2021-ci il tarixli **1446** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 986)**
9. 24 avqust 2022-ci il tarixli **1832** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 avqust 2022-ci il, "Xalq" qəzeti 25 avqust 2022-ci il № 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8 maddə 892)**
10. 26 yanvar 2023-cü il tarixli **2002** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2023-cü il, "Xalq" qəzeti, 27 yanvar 2023-cü il, № 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 90)**
11. 2 avqust 2023-cü il tarixli **2281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Xalq" qəzeti, 3 avqust 2023-cü il, № 162)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 1.1-ci bəndi və 8-ci hissə istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "**Cəmiyyət**" sözü ismin müvafiq hallarında "**Fond**" sözü ilə əvəz edilmişdir.

[2] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 1.1-ci bəndində **"Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət)**" sözləri "**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)"** sözləri ilə əvəz edilmişdir.

[21 sentyabr 2021-ci il tarixli **1446** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 986)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" üzrə 1.1-ci bəndə (ikinci halda) "**sahibkarların**" sözündən sonra "**Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) Himayəçilik Şurası tərəfindən müəyyən edilən iqtisadi fəaliyyət sahələri üzrə**" sözləri əlavə olunmuşdur və "**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)**" sözləri "**Fondun**" sözü ilə əvəz edilmişdir.

[3] [2 may 2018-ci il tarixli **33** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 2.1-ci bəndində "**ödənilmiş**" sözü "**ödənilməli olan**" sözləri ilə əvəz edilmişdir.

[4] [7 may 2020-ci il tarixli **1016** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)** ilə Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 3.2-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.2. Faiz subsidiyası kreditin faiz dərəcəsinin azı 6 faiz bəndini borcalanın ödəməsi şərtilə aşağıdakı hədlərdə verilir:~~

~~3.2.1. müddəti 3 (üç) il və ondan az olan kreditlər üçün – illik faiz dərəcəsinin 8 faiz bəndi miqdarında;~~

~~3.2.2. müddəti 3 (üç) ildən artıq olan kreditlər üçün – illik faiz dərəcəsinin 10 faiz bəndi miqdarında.~~

[5] [7 may 2020-ci il tarixli **1016** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)** ilə Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 3.3-cü və 4.5-ci bəndlər ləğv edilmişdir.

[6] [25 dekabr 2017-ci il tarixli **1762** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 4.1-ci, 4.5-ci və 5.6-cı bəndlərində ismin müvafiq hallarında "**Müşahidə Şurası**" sözləri ismin müvafiq hallarında "**Himayəçilik Şurası**" sözləri ilə əvəz edilmişdir.

[2 may 2018-ci il tarixli **33** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 4.1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.1. Hər bir müvəkkil bank üçün *Fondun Himayəçilik Şurası* tərəfindən faiz subsidiyası ilə əhatə olunan hər təqvim ili üzrə faiz subsidiyası limiti müəyyən edilir.~~

[7] [2 may 2018-ci il tarixli **33** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 4.2-ci bəndinə "**prosedurlara uyğun olaraq**" sözlərindən sonra "**Fondun İdarə Heyəti tərəfindən**" sözləri əlavə edilmişdir.

[8] [21 sentyabr 2021-ci il tarixli **1446** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 986)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə

görə subsidiya verilməsi Qaydası" üzrə 4.6-cı bənddə "**ilk 12 (on iki) ay üçün**" sözləri "**kredit verildiyi tarixdən həmin ilin sonunadək**" sözləri ilə əvəz edilmişdir.

[9] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.1-ci bəndinə "**müvəkkil bank**" sözlərindən sonra **"Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə**" sözləri əlavə edilmişdir.

[10] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.1.1-ci yarımbəndinə "**müvəkkil banka**" sözlərindən sonra "**elektron sistem vasitəsilə**" sözləri əlavə edilmişdir.

[11] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.2-ci bəndinə "**müvəkkil bankın**" sözlərindən sonra "**elektron sistem vasitəsilə**" sözləri əlavə edilmişdir.

24 avqust 2022-ci il tarixli 1832 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 avqust 2022-ci il, "Xalq" qəzeti 25 avqust 2022-ci il № 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8 maddə 892)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.2-ci bəndə "**vaxtda**" sözündən sonra "**və ya daha sonra ayrıca**" sözləri əlavə edilmişdir.

[12] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.4-cü bəndinə "**borcalanın**" sözündən sonra "**elektron sistem vasitəsilə**" sözləri əlavə edilmişdir.

[13] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.6-cı bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5.6. *Fond* bu Qaydanın 3-cü hissəsində müəyyən olunmuş halları və *Fondun Himayəçilik Şurasının* hər bir müvəkkil bank üçün müəyyən etdiyi limiti nəzərə almaqla, faiz subsidiyasının verilməsinə və onun həcminə dair müvafiq qərar qəbul edir.~~

[14] 21 sentyabr 2021-ci il tarixli 1446 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 986)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" üzrə 5.6.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 5.6.4-cü yarımbənd əlavə edilmişdir.

[15] 24 avqust 2022-ci il tarixli 1832 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 avqust 2022-ci il, "Xalq" qəzeti 25 avqust 2022-ci il № 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8 maddə 892)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 5.7-ci bəndə "**birlikdə**" sözündən sonra "**və ya faiz subsidiyası daha sonra verildiyi halda ayrıca**" sözləri əlavə edilmişdir.

[16] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 6.1-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6.1. Bu Qaydanın 7-ci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müvəkkil bank hər rübdən sonra 5 (beş) iş günü müddətində borcalanın faktiki ödədiyi faizlərin və borcalana ödənilməli olan hesablanmış faiz subsidiyasının məbləğini əks etdirən hesabatı və faiz subsidiyasının ödənilməsinə dair yazılı müraciəti *Fonda* təqdim edir.~~

[17] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 6.2.1-ci və 6.2.2-ci yarımbəndlərindən "**borcalana**" sözü çıxarılmışdır.

[18] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 6.4-cü bəndi ləğv edilmişdir.

[19] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.1.1-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~7.1.1. rübün sonuna borcalanın müvəkkil bankda olan hesabı üzərində müvafiq sərəncam olduqda – həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək);~~

[20] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.1.2-ci yarımbəndində "**rübün sonuna**" sözləri "**faiz subsidiyasının ödənilməsinə dair müvəkkil bankın elektron sistem vasitəsilə Fonda müraciət tarixinə 1 iş günü qalanadək**" sözləri ilə əvəz edilmişdir.

[21] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.2-ci bəndindən "**borcalana**" sözü çıxarılmışdır və "**müvəkkil banka**" sözləri "**müvəkkil bankın hesabına**" sözləri ilə əvəz edilmişdir.

[22] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.3.1-ci yarımbəndində "**borcalanın**" sözündən sonra "**və müvəkkil bankın**" sözləri əlavə edilmişdir.

[23] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.3.5-ci yarımbəndi ləğv edilmişdir və 7.3.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir.

[24] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5,**

**maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 7.4-cü bəndinə "**bu barədə**" sözlərindən sonra "**elektron sistem vasitəsilə**" sözləri əlavə edilmişdir.

[25] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 8-ci hissənin mətnində **"Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində**" sözləri "**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda**" sözləri ilə əvəz edilmişdir.

[26] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"na yeni məzmunda 9-cu hissə əlavə edilmişdir.